# Naxçıvan Dövlət Xalça Muzeyi






# NAXÇIVAN DÖVLƏT XALÇA MUZEYİ

<u>*Qısa bələdçi kitabçası*</u>

Naxçıvan - 2004



Naxçıvan Dövlət Xalça Muzeyi Muxtar Respublika Ali Məclisi Sədrinin Sərəncamı əsasında 1998-ci ilin aprel ayında fəaliyyətə başlamışdır.

Muzeyin ekspozisiya zallarının ümumi sahəsi 270 kv.metrdir. Bu sahədə 6 zal xalçaçılığa, 2 zal isə " Naxçıvan Xanlığı"na həsr edilmişdir. Muzey XVIII -XIX əsrlərdə Naxçıvan xanlarının yaşadığı binada yerləşir.

Mə"lum olduğu kimi xalçaçılıq sənəti Azərbaycanın ən qədim sənət növlərindəndir.Bu gün dünyanın elə bir muzeyi tapılmaz ki, orada Azərbaycan xalçaçılıq sənətinin yaxud da digər bir dekorativ - tətbiqi sənət növlərinin nümunəsi saxlanılmasın. Xalçaçılıq sənəti Azərbaycan xalqının milli təfəkkürü,qədim sənət növü və məşğuliyyəti, qədim tarixi deməkdir. Əsrlər boyu xalçaçılıq sənəti Azərbaycanda inkişaf etmiş, cilalanmış və özünün ən yüksək zirvəsinə çatmışdır. Əgər xalçaçılıq sənəti qədim şumerlərin keçəçilik sənətilə başlamışsa, bu gün həmin sənətin zirvəsi sayılan süjetli xalçalarla davam etməkdədir. Daha doğrusu insan ilmələrlə öz portretini toxuyur. X əsrə aid " Hüdud əl- aləm" adlı əlyazmada göstərilir ki, Azərbaycan şəhərləri, o cümlədən Muğan öz palazları, çuvalları və heybələrilə məşhur olduğu kimi, Təbriz və Azərbaycanın digər şəhərləri də xalçaçılığın bu və ya digər növlərilə məşhur olmuşdur.

Xalçaçılıq sənəti Naxçıvan ərazisində daim olmuş, inkişaf etmiş və məşhur "İpək yolu" vasitəsilə başqa ölkələrə də yayılmışdır. Bu onunla bağlıdır ki, Naxçıvan qədim dövrlərdən "İpək yolu" üzərində olduğuna görə, sənət adamlarının, xalçaçılıqla məşqul olan şəxslərin



inkişafına çox boyük tə"sir etmişdir. Çünki sənət burada yaşayan insanların eyni zamanda dolanışığı idi. Bu gün Naxçıvanda xalçaçılıq sənəti digər sənət növləri kimi yenə də yaşayır və nəsillərdən-nəsillərə verilir. Belə ki, Naxçıvanın Ordubad, Şahbuz,Bənəniyar, Vayxır,Şərur və digər bölgələrində fərdi formada xalçaçılığın bütün növlərilə məşğul olurlar. Bu gün siz Naxçıvan Dövlət Xalça Muzeyinin ekspozisiyasında da xalçaçılığın müəyyən növlərinin toxunuşu ilə əyani şəkildə tanış ola bilərsiniz. Mə"lumat üçün bildirək ki, muzeydə ayrıca xalça toxunuşu sexi də fəaliyyət göstərir.

Muzey 8 zaldan ibarətdir. 1-ci zal öz tərtibatına görə başqa zallardan fərqlənir.Bu zalda xalçaçılığın inkişaf yolu xronoloji formada öz əksini tapmışdır. Daha doğrusu keçəçilik, həsirçilik,palazçılıq növləri və digər xovlu və xovsuz xalçalar ardıcıllıqla burada əks olunur. Bundan başqa ipəyirmə texnikasına aid " Cəhrə" , "Yun darağı", "Düyçə", "Hana" ,"Həvə", "Kirgit" və boyaq bitkiləri də tamaşaçılara təqdim olunur.

Muzeyin 2-ci zalında Quba - Şirvan qrupuna aid xalçalar və dekorativ-tətbiqi sənət nümunələri nümayiş olunur. Burada əsasən qədim xalça növlərindən olan "Pirəbədil", "Xankarvand", "Salma söyüd", "Mehrabi", bundan başqa xalça toxunuşlu "At çulu","Məfrəş", müxtəlif dekorativ duz torbaları, milli geyimlər, naxışlı, yun corablar və misgərlik nümunələri də nümayiş olunur. Bu eksponatlar əsasən XVIII-XIX əsrlərə aid olub Naxçıvan ərazisində yerli ustalar tərəfindən hazırlanmış əşyalardır.

Muzeyin 3-cü zalında Qarabağ qrupuna daxil olan xalça və digər sənət nümunələri təqdim olunur. Buradakı XVIII-XIX əsrlərə aid olan eksponatların və digər nümunələrin



içərisində əsasən "Üç xaqan", "Fındıcan", "Muğan", "Laçakturunc", "Herat pirəbədil", "Boz qurd" kimi çox dəyərli və tarixi cəhətdən önəmli xalçalar təqdim olunmaqla yanaşı, eyni zamanda digər sənət növləri də nümayiş etdirilir.

Muzeyin 4-cü zalında nümayiş olunan xalçalar Təbriz-Naxçıvan qrupuna aiddir Bu zalda XVIII-XX əsrlərə aid "Abbas Mirzə" ,"Ovçuluq", "Leyli və Məcnun", "Ömər Xəyyam" adlı müxtəlif ölçülü xovlu xalçalar, namazlıq palaz, çox nadir sayılan və tarixi əhəmiyyətli ox çantaları, xurcunlar və digər nümunələr də yerləşdirilmişdir.

"Abbas Mirzə" adlı süjetli, xovlu xalça muzeyimizin ən dəyərli xalçalarındandır. Bu Təbriz xalçasının Naxçıvanın XVIII-XIX əsrlərə aid tarixi üçün çox böyük önəmi vardır. Belə ki, bu portret-xalça vaxtı ilə Naxçıvanda möhtəşəm bir qala olan "Abbasabad" qalasının ( XVIII-XIX əsrlərə aid) mühafizəçisi, vəliəhd Abbas Mirzənin şərəfinə toxunmuşdur. Xalça öz orijinallığına görə demək olar ki, təkrarsızdır. Miniatür janr formasında ( rəssamlıq əsərlərinə aiddir) işlənmiş bu xalça çox maraqlı bir texnoloji qaydada toxunmuşdur. Daha doğrusu burada süjet, xalçanın toxunulmaz yelan hissəsini yarmış və çərçivədən kənara çıxmışdır. Belə bir üslub demək olar ki, xalçaçılıqda çox nadir hallarda olur. Bu dəyərli xalçanı muzeyə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hədiyyə etmişdir.

Muzeyin 5-ci zalında Gəncə-Qazax xalçaları yerləşdirilmişdir. Bu zalda təqdim olunan xalçalar əsasən XIX - XX əsrlərə aiddir. Burada " Tikişçi qızlar", "Marallı", Dəvəli", " Alpan", "Dağkəsəmənli", "Güllü", "Samux", "Bağçada güllər",və digər xalçalar və nümunələr, o cümlədən



"Muğan" adlı xalçalar və bundan başqa milli silah növləri, musiqi alətləri və xalça toxunuşuna aid foto materiallar da nümayiş olunur.

Muzeyin 6-cı zalında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətilə bağlı kitablar, Naxçıvanda olarkən onun ictimaiyyətlə keçirdiyi görüşlərinə aid foto - materiallar və son dövrdə Naxçıvanda gedən tikinti, quruculuq və abadlıq işlərini əks etdirən fotoşəkillər təqldim olunur.

Ekspozisiyanın axırıncı iki zalı "Naxçıvan Xanlığı"na aiddir. Burada Naxçıvan xanlarının şəcərəsi, onlara aid olan arxiv sənədləri, şəxsi əşyaları, yağlı boya ilə işlənmiş portretləri, onların həyatları ilə bağlı kitablar və qəzet materialları nümayiş olunur. Bundan başqa 2002-2003-cü illərdə muzeydə əsaslı elmi-bərpa və təmir- tikinti işləri aparılan zaman aşkar olunmuş maddi - mədəniyyat nümunələri də bu zalda öz əksini tapmışdır. Bu isə muzey ərazisində qədim dövrlərdə də yaşayışın olmasından xəbər verir. Şübhəsiz ki, muzey ərazisindən tapılan belə qədim əşyalar da ümumən Naxçıvanın tarixinin öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Hörmətli tamaşaçı ! Sözsüz ki, muzeyin zəngin fondunda olan qiymətli eksponatlar haqqında qısa bir bələdçi kitabçasında məlumat vermək çətindir. Buna görə də həmişə yolunuzu gözləyirik.

XOŞ GƏLMİSİNİZ!





*"Heydər Əliyev" xalçası*
*Müəllif:professor*
*Kamil Əliyev. 1999-cu il*

*Fleecy carpet*
*"Haydar Aliyev"*
*Authored by Kamil Aliyev,*
*1999*



*Xovlu xalça."Üç xaqan". Qarabağ qrupu. XVIII əsr.*
*Fleecy carpet."Uch khagan".(Three Khakans)*
*Kharabakh group,XVIII century.*



*Xovlu xalça.*
*"Abbas Mirzə".Təbriz qrupu.*
*XIX əsr.*

*Fleecy carpet.*
*"Abbas Mirza" Tabriz group,*
*XIX century*



*Xovlu xalça. "Xankarvand". Şirvan qrupu. XIX əsr.*
*Fleecy carpet."Khankarvand" Shirvan group,XIX century.*



*Xovlu Qarabağ xalçası. XX əsr.*
*Fleecy carpet  Kharabakh. XX century*



*Xovlu xalça "Leyli və Məcnun". Naxçıvan qrupu. XX əsr.*
*Fleecy carpet."Leyli & Mejnun" Nakhchivan group,XX century*



*Ekspozisiyanın bir guşəsi.*
*View from exposition*



Xovlu xalça “Ordubad”. Naxçıvan qrupu. XX əsr.
Fleecy carpet.”Ordubad” Nakhchivan group,XX century.



Ekspozisiyanın bir guşəsi.
View from exposition.



*Ekspozisiyanın bir guşəsi.*

*View from exposition*



*Xan otağının bir guşəsi.*

*View from Khan's room*



Ekspozisiyanın bir guşəsi.
View from exposition



Xovlu xalça "Ovçuluq".
Naxçıvan qrupu.
XVIII əsr.

Fleecy carpet."Ovchulug"
(Hunting)
Nakhchivan group,
XVIII century



*Xovlu xalça. "Mehrabi"*
*Şirvan qrupu.*
*XIX əsr.*

*Fleecy carpet.*
*"Mehrabi"(Sanctuary)*
*XIX century.*



*Ehsan xanın*
*qızı Qönçəbəyim.*
*Rəssam Rafael*
*Qədimov*

*Gonchabayim,*
*doughter of*
*Ehsan Khan*
*Artist Rafael*
*Gadimov*



*Xovlu xalça "Pirəbədil". Şirvan qrupu. XVIII əsrin sonu.*
*Fleecy carpet."Pirabadil" Shirvan group,XVIII century*



*Vərni toxunuşu "Ox çantası".Təbriz qrupu. XIX əsr.*
*Crocheting (verni version)."Okh chantasi"(Arrow bag)*
*Tabriz group,XIX century.*



Vərni toxunuşu "Ox çantası" Təbriz qrupu. XIX əsr.
Crocheting (verni version)."Okh chantasi"(Arrow bag)
Tabriz group,XIX century.



Xovlu xalça. "Qollu çiçi"
Şirvan qrupu.
XIX əsr.

Fleecy carpet. "Gollu chichi"
Shirvan group.
XIXcentury.

*Mətnin müəllifi- Arif Qədirov,*
*Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru,*
*Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi.*

FUJIFILM

*Naxçıvan, Azadlıq 11*
*Telifaks: 5 63 70 E-mail: namiq669166@mail.ru*
*Dizayn: Ə. Tağı*